**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

**Bakı şəhəri** **№ 264/2** **22 iyun 2015-ci il**

**“Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında” Əsasnamə barədə**

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.24-cü “Auditorlar Palatasına assosiativ və fəxri üzvlüyün təşkili” bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlüyə qəbulun şərtləri və qaydalarını, üzvlərin hüquq və öhdəliklərini, üzvlük haqlarının ödənilməsi qaydalarını və müddətlərini, üzvlüyün dayandırılması şərtlərini və qaydalarını, üzvlükdən çıxmağın qaydasını təmin etmək məqsədilə, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış Əsasnamənin layihəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında” Əsasnamə təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palataya üzvlüyə qəbul məsələlərini bu Əsasnamənin müddəalarına uyğun həyata keçirsinlər.
3. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**